# Dağlar yolumuzu gözləyir...

*Ermənistan dövlətinin ideologiyası faşizm üzərində qurulmuşdur. Bugünkü Ermənistan dövləti tarixi Azərbaycan torpaqlarında yaradılmışdır. Bu tarixi həqiqətdir. İrəvan xanlığında yaşayanların əksəriyyəti Azərbaycan türkləri idi. Zəngəzur mahalı Azərbaycandan zorla qoparılıb ki, böyük türk dünyasını parçalasınlar. Ancaq vaxt gələcək, bu ədalətsizlik aradan qaldırılacaqdır.*

Tarix göstərir ki, Azərbaycan torpaqları hesabına "böyük Ermənistan" dövləti yaratmaq üçün azərbaycanlıların soyqırımını törətmək erməni vandallarının uzunmüddətli, çirkin, azğın milli məqsədidir və bunu hər bir azərbaycanlı yaxşı bilir. Azərbaycan ərazisinin haylar tərəfindən parçalanması, əhalinin ağır müsibətlərə düçar edilməsi, son iki əsrdə əvvəlcə çar Rusiyasının, sonralar isə totalitar sovet rejiminin bilavasitə yardımı və himayəsi ilə ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi düşünülmüş, məqsədyönlü soyqırımı siyasəti mərhələ-mərhələ aparılmış və xalqımıza ağır zərbələr vurulmuşdur. Gülüstan və Türkmənçay müqavilələri nəticəsində Azərbaycan torpaqları erməni şovinistləri tərəfindən parçalanaraq işğal edilmiş, Qərbi Azərbaycan ərazilərinə başqa ölkələrdən ermənilərin köçürülməsinə başlanmışdır. Həmin dövrdə ermənilər azərbaycanlılarla müqayisədə azlıq təşkil edirdilər. Çar Rusiyasının köməyi ilə haylar Qərbi Azərbaycan ərazisində "erməni vilayəti" adlı süni inzibati ərazi bölgüsü yaradılmasına nail oldular. Bununla da azərbaycanlıların öz əzəli torpaqlarından qovulması və məhv edilməsi siyasətinin əsası qoyuldu, soyqırımı Azərbaycan torpaqlarının işğalı strategiyasının ayrılmaz tərkib hissəsinə çevrildi.

1918-ci ildə Qərbi Azərbaycanın demək olar ki, əksər ərazilərində ermənilər Azərbaycan türklərinə qarşı irimiqyaslı hücuma keçdilər. Andranikin vəhşi, qəddar dəstəsi Zəngəzur mahalında analoqu olmayan qırğınlar törətdi. Buradakı daşnak dəstələrin başçıları öz çirkin məqsədlərini reallaşdırmaq üçün gizli yolla Bakıda bolşevik adı ilə maskalanmış Stepan Şaumyanla əlaqə yaratdılar. Həmin dövrdə qubernatora vurulan teleqramlarda göstərilirdi ki, Zəngəzurda zülm və işgəncə ilə qətlə yetirilən azərbaycanlıların sayı-hesabı yoxdur, bu nə vaxtadək davam edəcək?

1918-1920-ci illərdə erməni daşnakları Göyçə mahalı, İrəvan xanlığı, Amasya, Dərələyəz, Vedi, Lori-Pəmbək və digər ərazilərdə törətdikləri qırğınlar zamanı azərbaycanlıların böyük bir qismi xarici ölkələrə qaçmağa məcbur oldular. Həmin çətin günlərdə kəndimizin sakinləri Qaraqoyunludan qonşu Kəlbəcərə və digər rayonlara qaçıb getdilər. Qarlı, çovğunlu dağ aşırımlarında neçə-neçə insanlar tələf oldu. Dərələyəz mahalında hamilə qadınlar ermənilər tərəfindən süngüdən keçirildi, 10 nəfər azyaşlı uşaq dərin su quyusuna atıldı, dağ yolunda iki arabaya od vurulub yandırıldı və bir neçə günahsız insan həlak oldu.



1920-ci ildə Ermənistanda Sovet hakimiyyəti qurulanda ermənilər bolşevik bayrağı altında daha da fəallaşdılar, onlar Dilican dərəsini, Göyçə mahalını, Zəngəzur mahalını ələ keçirməyə nail oldular. Bu isə azərbaycan türkləri tərəfindən narazılıqla qarşılandı.

Çox keçmədən ermənilər ələ keçirdikləri yeni ərazilərdə azərbaycanlılara məxsus yeraltı və yerüstü maddi mədəniyyət nümunələrinin çoxunu məhv etdilər, habelə erməniləşdirərək mənimsədilər.

1937-ci ildə ermənilər növbəti hiyləyə əl atdılar. Moskvanın razılığını aldıqdan sonra bir qrup Qərbi Azərbaycandakı soydaşlarımıza qolçomaq adı altında damğa vurdular, onları Orta Asiya və Qazaxstana sürgün etdilər. Sovet İttifaqı dövründə ermənilər öz faşist ideologiyasını davam etdirdilər, Qərbi Azərbaycanın hər yerində ayrı-seçkiliyə yol verildi, xüsusilə gənc azərbaycanlı kadrların işlə təmin olunmasına laqeyd münasibət göstərildi. Qərbi Azərbaycanda yaşayan soydaşlarımız ayrı-ayrı illərdə ermənilər tərəfindən deportasiyaya məruz qaldı, onların hüquqları pozuldu.

1988-ci ilin fevralında Dağlıq Qarabağda erməni separatizminin baş qaldırılmasından sonra İrəvanda fasiləsiz mitinqlər keçirildi. Fevralın 23-də erməni quldurları İrəvan şəhərindəki Dəmirbulaq məscidini və M.F.Axundov adına 9 nömrəli Azərbaycan məktəbinin binasını yandırdılar. Dəqiq məlumata görə, yanğın hadisələri Zori Balayan və Viktor Hambartsumyan tərəfindən təşkil edilmişdir.

Ermənilər İrəvandakı ibadətə açıq olan yeganə Dəmirbulaq məscidini sökmək üçün belə bir bəhanə yaymışlar ki, guya azərbaycanlılar Bakıda yaşayan erməni kilsəsini sökmüşlər. Beləliklə, 300 min Azərbaycan türkü öz tarixi etnik torpaqlarından deportasiya olundu.



Mən əslən Basarkeçər rayonunun Böyük Qaraqoyunlu kəndindənəm. Ayrı-ayrı illərdə kəndimizin yetirmələrindən Aydın Məmmədov və İman Hüseynov SSRİ Ali Sovetinin deputatı olmuşdur. Atam Xosrov BDU-nun jurnalistika fakültəsini bitirmişdi. O, həmişə Göyçə mahalında ayrı-ayrı illərdə ermənilərin törətdikləri faciələr barədə ətraflı danışardı. Bilirdim ki, ermənilər tarixən türk xalqlarına qarşı düşmənçilik mövqeyində dayanmışlar.

Qərbi azərbaycanlıların ata-baba torpaqlarından qovulmasından artıq 37 il keçir. Uzun müddətdir ki, deportasiyaya məruz qalmış insanlar yurd həsrəti ilə yaşayırlar. Azərbaycan Prezidenti İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşəndə Qarabağ münaqişəsi həll olunduqdan sonra indi qarşıda duran əsas məsələnin Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının hazırlanması olduğunu və bunun sülhsevər konsepsiya olduğunu bildirmişdir. İnanırıq ki, yurd həsrətli insanlar tezliklə Qərbi Azərbaycana dönəcəklər...

**İftixar HÜSEYNOV,**
**100 saylı Göygöl-Daşkəsən-Kəlbəcər Dairə Seçki Komissiyasının sədri.**